

## HAFİZ ƏLİMƏRDANLI

### LAHIC

Lahıc, yollarından yazmışam sənin,
Özündən deməyə zaman istərəm,
Qoynunda dünyanı mənə bəxş etdin,
Anamtək, sevgini qəlbdə bəslərəm.

Açanda tarixin vərəqlərini,
Oxunur orada sənin də adın,
Baxma ki, əsrlər saxlar sirrini,
Olarsan yaşıdı bəlkə Bağdadın.

Adının mənşəyin çoxu bilməyir,
Tanrının sevdiyi torpaq deməkdir,
Bu haqda müxtəlif rəvayət gəzir,
Doğrusun öyrənmək, bilmək gərəkdir.

Demirəm illəri, əsrləri mən,
Min illər ötübdür bu gün yaşından,
O daş döşənmiş küçələrindən,
Keçənlər çıxarmı heç yaddaşından?

Burda neçə alim, neçə sənətkar,
Su içmiş bir zaman çeşmələrindən,
Lahıclı xanımlar neçə qış, bahar,
Xalçalar toxumuş ilmələrindən,

İgid babaların adı səslənir,
Cavanşir dövlətin quran zamandan,
Bəlkə də Girdiman daşanda gəlir,
Onların nərəsi bu gün Niyaldan.

Gördülər qüvvəsin xain qonşular,
Ustalar düzəldən topun səsindən,
Heyrət içindəcə onlar dondular,
İtdilər tarixin səhifəsindən.

Lahıc...
Sanki əsrlərdən bir yadigarsan,
Bu günün o gündən xəbərlər verir,
Hələ açılmamış sirrlər saxlarsan,
Hər binan, hər daşın gör nələr deyir.

Yenə də yazılır tarixin sənin,
Gələcək nəsillər gərəkdir bilsin,
Kök atır hələ də saf rişələrin,
Bu gündən sabaha yeni söz desin.

İndi nəvələrin qoruyur səni,
Vətənin gülüstan guşəsi kimi,
Gələnlər görürlər qədim məskəni,
Şöhrətin tutmuşdur bütöv aləmi.

### DAĞLARIM MƏNİM

Bilmirəm belədir, ya belə deyil,
Hər kəsin bəxtində bir dağ yüksələr,
Yazılar, hər kəsin daşı var deyər,
Açılmış çiçəyi onu gözləyər.

Vaxtilə gördüyüm, gəzdiyim dağlar,
Bir mənə çatdırın, qalıbmı onlar?
Saxlarmı Babadağ zirvəsində qar?
Yoxsa ki, özündə nəsə gizləyər.

Söyləyin Niyaldağ heç dəyişibmi?
Zirvələr karvanı ordan keçibmi?
Buludlar ətəyi məskən seçibmi?
Yenəmi, vüqarla bizi izləyər.

Xəbərlər varmıdır Gümüşqaladan,
Qarşılar günəşi yenə o başdan,
Sıldırım qayalar bəlkə bir zaman,
Keçən günlərinə dönmək istəyər.

Qarabel nə deyir o günlərindən,
Yadına salırmı bizləri hərdən,
Xatırlar Girdiman, demərəm qəsdən,
Bəzən keçən günlərindən mənə söyləyər.

Min əfsanə deyilir, Fit dağı səndən,
Örtmüş tarixini çoxdan duman, çən,
Yazılmır, bilmirəm, heç niyə, nədən,
Açılsın sirrlərin, dövran səsləyər.

Çıxarmı heç mənim bir an yadımdan,
Günəş boylananda Qaban dağından,
Səhərin nəğməsin dinlərdim candan,
Ömrün simfoniyası bu cür bəstələnər.

Hər dağın, hər daşın dastanı vardır,
Həyatda yəqin ki, dastanlar qalır,
Zaman işindədir, yoluna salır,
Bizləri, ay dağlar...
Yəqin ki, sizləri nəvəm dinləyər.

## BİR GÖZÜM AĞLAYIR, BİR GÖZÜM GÜLÜR

Bir həyat qismətim olubdur, nədən,
Bir gözüm ağlayır, bir gözüm gülür.
Günahım, ilahi, soruşum səndən,
Nədədir, bu sual qəlbimi üzür.

Bir tərəf Bakıdır, ürək sevinir,
Tərifi. sədası ölkələr gəzir,
Bir tərəf Qarabağ. əlimdən gedir,
Dağılır yurd-yuvam, ocağım sönür.

Qərarlar verilir başqa yerlərdə,
Saxtadır hər qərar, sözlər əslində,
Bilinmir düşmən kim, dost deyilsə də,
Cilidlər altında torlar hörülür.

Torpağı qəsb edib, sülhdən danışır,
Silahlar göstərir, sözdə yarışır,
Hərdən hədələyir, hərdən barışır,
Maskalar açılır, üzlər görünür.

Qarabağ alınar, gələr bir zaman
Olsa da düşmənim hiyləgər şeytan,
Ayaq tutsa belə, yeriməz yalan,
Güləcək əslində, kim sonda gülür.

Bu günlər ürəyim, könlüm də birdir,
Hələ ki, ...
Bir gözüm ağlayır, bir gözüm gülür,
Günahım, ilahi, söylə nədədir?
Çoxdandır bu sual qəlbimi üzür.

## BİR NƏĞMƏ SÖYLƏ Kİ...

Bir nəğmə söylə ki, könlümü alsın,
Sözləri od olub, qəlbimdə yansın,
Bir nəğmə söylə ki, yadıma salsın,
Sənli günlərimi səninlə ansın.

Bir nəğmə söylə ki, ürəkdə qalsın,
Səslənsin qəlbimdə qalan günlərim,
Keçən günlərimdən yenə yaşansın,
Yadıma düşəndə xatirələrim.

Bir nəğmə söylə ki, həsrət qalmasın,
Səndən ayrı düşsəm, de necə dözüm?
Kədərdən gözlərim yaşla dolmasın,
Nəğməndə əksini tapsın qoy sözüm.

Bir nəğmə söylə ki, dərd-qəm azalsın,
Gələn günlərimdən bir xəbər bilim,
Bu gündən sabaha bəlkə usansın,
Səninlə ötənə əlvida deyim.

## MƏN AZƏRBAYCANLIYAM

*"Mən, həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam".*
***Heydər Əliyev.***

Bilin siz ey insanlar,
Qəlbimdə məşəl yanar,
Gələcəyə yol açar,
Vüqarlıyam, şanlıyam,
Dosta istiqanlıyam,
Mən azərbaycanlıyam.

Dünyaya mən göz açdım,
Yazıldı burda adım,
İlk addımları atdım,
Sevindi anam, atam,
Borcumdur yada salam,
Mən azərbaycanlıyam.

Böyüdüm mən əslində,
Alovların içində,
Uluların dilində,
Bu torpaq olmuş mayam,
Mən azərbaycanlıyam.

Yoğrulmuşam odla mən,
Dağlarımda duman, çən,
Gəlsə üstümə düşmən,
Od olub gərək yanam,
Mən azərbaycanlıyam.

Daşan sellər qanımdır,
Coşan Xəzər canımdır,
Tarix özü şanımdır,
Dağlarımtək qarlıyam,
Mən azərbaycanlıyam.

Tarixlərdən səslənir,
Əslim qədimdən gəlir,
Dədəm Qorqud dillənir,
Bu torpağa bağlıyam,
Mən azərbaycanlıyam.

Manna olmuş dövlətim,
Midiyadır şöhrətim,
Atropatsa qüdrətim,
Tarixdə bir ad-sanam,
Mən azərbaycanlıyam.

Neçə alim, sənətkar,
Neçə şair, bəstəkar,
Yaradıb gizli, aşkar,
Əsərlərdən aldım kam,
Mən azərbaycanlıyam.

Qurduq ilk cümhuriyyət,
Sevindi Şərqdə millət,
Qəlbimizdə xoş niyyət,
Azadlığa həmkaram,
Mən azərbaycanlıyam.

Yetişdi indi dövran,
Qurtardıq son əzabdan,
Sovetlər kabusundan,
Azad nəfəs alıram,
Mən azərbaycanlıyam.

Bir məsləkim, bir eşqim,
Çox ucadan mən deyim,
Sülhə vardır dəstəyim,
Bu torpağın oğluyam,
Mən azərbaycanlıyam.

Pay olmaz torpağımdan,
Eşitsin cümlə cahan,
Döyüşərəm hər zaman,
Müsəlləh əsgər ollam,
Mən azərbaycanlıyam.

Müqəddəsdir torpağım,
Tanrıdan çatıb payım,
Hər daşım, axan çayım,
Deyir Azərbaycanam,
Mən azərbaycanlıyam.

Bu gün mən yaralıyam,
Qarabağdan ayrıyam,
Soruşma haralıyam,
Qaxlı, Lənkəranlıyam,
Şəkili, Şirvanlıyam,
Dərbənd, Naxçıvanlıyam,
Təbriz, İrəvanlıyam,
Mən azərbaycanlıyam,
Mən azərbaycanlıyam.

## BİR DAYAN, EY İNSAN

Zəmanəmi qarışıb?
Günahlarmı dolaşıb?
Yoxsa insanlar çaşıb?
Nifaq həddini aşıb,
Sel kimi bu gün daşıb.

Bir zamanlar dünyada,
Hökm edirdi hər yanda,
Nəhəng imperiyada,
Roma yaratdı qayda,
Olmadı ondan fayda.

Millətlər ayrıldılar,
Azadlığı aldılar,
Yenə nifaq saldılar,
Neçə-neçə torpaqlar,
İşğal altda qaldılar.

Bu tarix davam edir,
Neçə min ildir gedir.
İndi dəyişən nədir?
Yer kürəsi titrədir,
Yeni silahlar gəlir.

Daha yoxdur ox-kaman,
Atom olubdur yaman,
Dəhşətləri yaradan.
Dəyişməzdir tək insan,
Keçsə də neçə zaman.

Yenə dünyanı bölür,
Məqsədi bunda görür,
Tanrı hətta hönkürür,
İnsan daha düşünmür,
Yaratdığını sökür.

Bir dayan, insan düşün,
Neçə illər, neçə gün,
Yaşamısan özünçün.
Tutaq, dünyanı böldün,
Qazancmı bunda gördün?

Yaratdığın silahlar,
Daha yeri parçalar.
Ondan sonra nə qalar,
Tanrı da məcbur olar,
Dünyanı geri alar.
Dünyanı geri alar.

## MƏN QƏLBİMƏ MİNNƏTDARAM

Beynim yorulmusan deyir,
Dincəl hələ işlər çoxdur,
Könlüm isə gileylənir,
Dincəlməyə vaxtın yoxdur.

Ömrün yolu dolanbacdır,
Keçmək üçün kömək istər,
Ağılla qəlbə möhtacdır,
Hər birindən pay gözləyər.

Ağıl dözər çətinliyə,
Yollar arar, çıxsın ordan,
Könül sual verir niyə,
Bəs yubandın, ötür zaman?

Ağıl ilə fikir gəlir,
Demək, o öz işin görür,
Ürək isə sərhəd bilmir,
Gah deyinir, gah da küsür.

Könül sevsə daha dözmür,
Ağıla tək dikir gözün,
Ağıl sabahı düşünür,
Ürək narahatdır bu gün.

Ürək qayda-qanun nədir,
Bilmir, çıxır tez özündən,
Bəlkə özü hiss eləmir,
Yaşayıram onunla mən.

Rahatlığı heç istəmir,
Aşıb daşan sellər kimi,
Suyu daim təzələnir,
Hər il açan güllər kimi.

Ürəyimdə olsa tufan,
Sanaram ki, yaşayıram,
Dəyişirəm zaman-zaman,
Mən qəlbimə minnətdaram,
Mən qəlbimə minnətdaram.

## *NAĞILLAR ALƏMİNDƏ*

Görüşdüm bir dəfə bir alimlə mən,
Yaşı əlli olmaz, saçlar ağarmış,
Gözündə qayğılar salmışdı məskən,
Düşündüm əllidə qocalıq varmış.

İndi əlli nədir, yetmişim keçib,
Ürəyim bunu heç dərk eləməyir,
Bu illər necə tez ötüşüb gedib,
Yalnız ağlım ona düzgün yer seçib.

Ürəyim hələ də uşaqlar ilə,
Moruq, böyürtkən yığmaq istəyir,
Ürəyim hələ də gətirir dilə,
Nənəmdən maraqlı nağıl gözləyir.

Nağıllar aləmi aparır məni,
Nənəmlə qayğısız olan illərə,
Ürəyim istəyir ötüb keçəni,
Günbəgün bu günə yenə göndərə.

Heyhat, bu mümkünsüz, heç ola bilməz,
İndi qalan gündən düşünüm gərək,
İndi söyləyim mən nənəmə əvəz,
Nəvələr nağıllar istəsə demək.

İndi başa düşdüm nağıllarla tən,
Nənəm xatırlardı öz nənəsini,
Yalnız nağılları danışanda mən,
İstəyim verəcək öz bəhrəsini.

**QƏZƏLLƏR**

## *Ola bilməz*

Qəlbində yanmasa atəş, üzündə nur ola bilməz,
Öpməsə tale əlindən, qəlbin məğrur ola bilməz.

Dünya sənin, fəxr eləmə, könlün yenə aciz qalar,
Sevdiyin afət yahu, sevməyə məcbur ola bilməz.

Sanma ucalan dağ qədər, möhtəşəm görkəmin vardır.
Olmasa çəmən, düzənlik, canda qürur ola bilməz.

Bir kəhkəşan sanı qədər, olsa sənin var-dövlətin,
Yaratmaq eşqi yoxsa, həyatda uğur ola bilməz.

Can ver eşqin bağçasına, o yağan yağış təkin sən
Örtməsə göyləri bulud, ta ki yağmur ola bilməz.

Deməsə ol gülü rəna, qəlbində sürətin vardır,
Sinəndə döyən ürəyin, heyhat cəsur ola bilməz.

Hər nə desəm ürəkdəndir, ürək buna heç dözərmi?
Yenə dözən tək Hafizdir, nədən məşhur ola bilməz?

## *Könül girmə eşq aləminə*

Könül girmə eşq aləminə, onun Məcnunu vardır,
Məhəbbətin Leylitək əfsanəsi, məzmunu vardır.

Eşqin yolu dağ-dərədir, hər istəyən keçə bilməz,
Sızıldayar qəlbim mənim, könlümün vurğunu vardır.

Gecə gündüz yanar şamtək, qəlbim mənə yol göstərər,
Əsla sönməz, baxma eşqin sazağı, çovğunu vardır.

Axsa qəmdən göz yaşlarım, bəs ürəyim ağrımazmı?
Sevincin də, kədərin də, yəqin öz məftunu vardır.

Bir rəqiblə görsəm səni, gözlərimin qanı axar,
Hər vüsalın, hər hicranın öz qayda-qanunu vardır.

Qəlbim indi hicrandadır, bir zamanlar vəsli gözlər,
Eşq yolunda vüsal üçün, əqlimin oyunu vardır.

Danlama ol yarı, Hafiz, günah sənin özündədir,
Hər nağılın, hər dastanın gedişi, həm sonu vardır.

## *Ləbin məndən can istərsə*

Ləbin məndən can istərsə, canı verrəm qurban deyil?
Yetməz məgər cəfa çəkdim, cəfa verən peşman deyil?

Yandı bağrım ol cövründən, ürəyin bəs heç yanmadı,
Dedilər çarə var səndə, çarə etsən ehsan deyil?

Əzabına dözdüm pünhan, sevən bilməz əzab nədir,
Bu əzabdan sənə qismət, ötsə zaman candan deyil?

A dostlarım qınamayın, ayrılığa dözmək olmur,
Ol gülzarı görsəz deyin, hər ayrılıq hicran deyil.

Onu görsəm könlüm gülər, ahu-zardan qalmaz əsər,
Bu sevdadan qələm alsan, yazılası dastan deyil?

Əfsanələr eşitdim mən, ayrı düşsəm yaman olar,
Hicran anı uzansa da, vəslə yetmək bir an deyil?

Gəl şikayət etmə Hafiz, bu sevdadan soruş candan ,
Əvvəl-axır qəlbin deyər, bu sevdaya heyran deyil?